# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

**Vətən bölünməzdir!**



# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 09-10 (8413) ● Cümə, 16 mart 2018-ci il ● Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ● Qiyməti 50 qəpik


## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ LƏNKƏRAN ŞİH-nin BAŞÇISI TALEH QARAŞOVUN LƏNKƏRANLILARA BAYRAM TƏBRİKİ

**Əziz həmvətənlər,**
**Hörmətli lənkəranlılar!**

Xalqımızın milli-mənəvi dəyərlərinin ən gözəl nümunələrindən olan Novruz bayramı güllü-çiçəkli, xoş qədəmli bahar nəfəsi ilə yurdumuza qədəm basır. Artıq hər bir ailə, hər bir vətəndaş su, od, yel və torpaq çərşənbələri ilə müşayiət olunan Novruz bayramının sevincini yaşayır. Mahiyyət etibarı ilə dostluq, həmrəylik, barışıq, xeyir-bərəkət, bolluq rəmzi olan Novruz bayramının təbiətin ən gözəl fəslində qeyd olunması bu sevinci daha da qüvvətləndirir. Baharın gəlişi ilə gecə-gündüz bərabərləşir, torpaq oyanır, ağaclar çiçək açır, təbiət al-əlvan rəngə boyanır. İnsanların ürəyində sevinc aşıb-daşır, küsülülər barışır, bayram xonçaları süfrələri bəzəyir.

İldən-ilə daha təntənə ilə qeyd etdiyimiz Novruz bayramını xalqımız bu il də alnı-açıq, üzüağ qarşılayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkədə sosial-iqtisadi inkişafın getdikcə sürətlənməsi, yeni-yeni sosial layihələrin uğurlu icrası əhalinin sosial müdafiəsinin güclənməsinə, yaşayış səviyyəsinin durmadan yüksəlməsinə geniş imkanlar açıb. Eyni zamanda, ölkədə abadlıq-quruculuq işləri daha böyük vüsətlə aparılır. Əldə olunan iqtisadi artım hesabına sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində yüksək nəticələr qazanılır. Bu nailiyyətlər xalqımızda böyük ruh yüksəkliyi, xoşbəxt sabaha tükənməz inam yaradır.



Baharın gəlişi ilə yaz-tarla işləri başlayır, yaşıl çay plantasiyalarında, sitrus bağlarında, taxıl və çəltik zəmilərində bol məhsulun əsası qoyulur. Ötən il cənab Prezident İlham Əliyevin şəhərimizə səfəri və bu səfər zamanı keçirdiyi çay, çəltik və sitrus meyvəçiliyinə dair müşavirədən sonra yaranmış işgüzar əhval-ruhiyyə baharın gəlişi ilə daha da geniş vüsət alıb.

Ötən ilin dekabrın 19-da respublikada ilk dəfə olaraq Lənkəranda çay, çəltik və sitrus festivalının keçirilməsi də rayon sakinlərinin fədakar əməyi ilə hasilə gələn məhsulların, bol nemətlərin bariz nümayişinə çevrildi. Çoxsaylı qonaqların iştirak etdiyi bu el bayramının unudulmaz təəssüratı hələ də yaddaşlara hakim kəsilib.

**Əziz lənkəranlılar!**

Rayonumuz özünün füsunkar təbiəti ilə bu bahar günlərində daha gözəl görünür. Lənkəran şəhərində, kənd və qəsəbələrdə geniş miqyaslı tikinti-abadlıq və yaşıllaşdırma işləri görülür. Sevindirici haldır ki, iməciliklərdə, mədəni-quruculuq tədbirlərində hamınız həvəslə iştirak edirsiniz, rayonumuzun daha da abadlaşmasına töhfələrinizi verirsiniz.

Cənab Prezident İlham Əliyevin davamlı diqqəti və qayğısı ilə rayonumuzun sosial-iqtisadi inkişafı sahəsində görülən işləri, şəhərimizin prospekt və küçələrinin, yolların asfaltlanmasını, çoxmənzilli yaşayış binalarının əsaslı təmiri və dam örtüklərinin dəyişdirilməsini, elektrik enerjisinin, təbii qazın və içməli suyun fasiləsiz verilməsini, sosial problemlərin həllinə göstərilən diqqət və qayğını sakinlərimiz minnətdarlıq hissi ilə qarşılayırlar.

Lənkəranı turizm şəhərinə çevirmək istiqamətində atılan inamlı addımlar, tikintisi davam edən yeni Olimpiya İdman Kompleksi və 11 mərtəbəli, 4 ulduzlu "Qafqaz sahil" Otel Kompleksi, "Lənkəran" İstisu sağlamlıq mərkəzi, bu il açılışı olacaq yeni Ələt-Astara magistral avtomobil yolu turizmin inkişafına əlverişli imkanlar yaradacaq və Lənkəranın şöhrətini yayacaqdır.

Budur, bahar öz füsunkar gözəlliyi, bol ruzi və bərəkəti, mübarək qədəmləri ilə Azərbaycan torpağına gəlir. Özü ilə bayram sevinci gətirən bu bahar ürəklərdə yeni arzular, yeni duyğular oyadır və hər birimizi doğma Vətənimiz Azərbaycanın tərəqqisi naminə var qüvvəmizlə çalışmağa, qurub-yaratmaq eşqi ilə yaşamağa çağırır.

**Əziz lənkəranlılar!**

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər bir ailəyə xoşbəxtlik və səadət arzulayıram. Arzu edirəm ki, evləriniz nurlu, süfrələriniz bol və bərəkətli olsun.

Bayramınız mübarək!

*İcra başçısının səyyar qəbul-görüşləri*



Səh. 2



Səh. 3

*8 mart – Beynəlxalq Qadınlar Günü*

*Prezidentin qayğısı – xalqın sevgisi*




Səh. 4



Səh. 6

*"Müasir Azərbaycan qadını-3"*

*Siyavarda yeni məktəb binası istifadəyə verilib*



Səh. 7

# İCRA BAŞÇISININ SƏYYAR QƏBUL-GÖRÜŞLƏRİ

## ŞAĞLASER KƏNDİNDƏ



Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov rayonun Şağlaser kəndində əhali ilə növbəti səyyar qəbul-görüşünü keçirib.

İcra hakimiyyəti rəsmilərinin, rayonun hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərlərinin və yerli sakinlərin iştirak etdikləri tədbiri giriş sözü ilə açan ŞİH başçısının Şağlaser kənd inzibati ərazi vahidliyi üzrə nümayəndəsi Samid Ağayev son dövrlər ərazidə sosial-iqtisadi inkişafla bağlı görülən işlərdən, o cümlədən kəndlara yollarının təmirindən, əhalinin fasiləsiz olaraq təbii qaz və elektrik enerjisi ilə təchizatından, torpaq adamlarına dövlət tərəfindən subsidiyaların verilməsindən və digər məsələlərdən danışıb.

Yerli sakinlərdən Məmi Nəsirov, Zabil Hacıyev, Qüdrət Şahbazov, Oruc Həbibov və digərləri çıxış edərək icra başçısına Şağlaser kəndinə növbəti dəfə gəldiyinə və əhali ilə səmimi görüş keçirdiyinə görə razılıqlarını bildiriblər. Vurğulanıb ki, bu kəndlərdə yaşayan əhalinin əsas məşğuliyyəti heyvandarlıq, tərəvəzçilik, sitrusçuluqdur. Əvvəllər Lənkəran-Boradigah şose yolu bərbad vəziyyətdə olduğundan sakinlər fərdi təsərrüfatlarında istehsal etdikləri məhsulu bazarlara çıxarmaqda, eyni zamanda, gündəlik tələbat mallarını almaqda problemlərlə üzləşir, böyük əziyyət çəkirdilər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində ölkədə sosial məsələlər həllini tapdıqca insanların rifah halı gündən-günə yaxşılaşır. Lənkəran-Boradigah şosesi də əsaslı tikilərək əhalinin istifadəsinə verilib. Bu rahatlığa görə bütün sakinlər adından cənab Prezidentə bir daha minnətdarlıq ifadə olunub.

Qeyd olunub ki, ərazi vahidliyinin Şağlaser, Xarxatan və Cil kəndlərində yeni tipli orta məktəb binaları tikilərək istifadəyə verilib. Sakinlər həmçinin Cil kəndində həkim ambulatoriyasına da ehtiyac duyulduğunu İcra başçısının diqqətinə çatdırıblar.

Görüşdə İcra başçısı Taleh Qaraşov çıxış edərək son 14 il ərzində Azərbaycanın yüksək templə inkişaf etdiyini, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçilik siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla və layiqincə davam etdirildiyini diqqətə çatdırıb. Ölkəmizdə aparılan geniş abadlıq və quruculuq işlərindən, həyata keçirilən beynəlxalq və respublika əhəmiyyətli layihələrdən söz açan İcra başçısı qeyd edib ki, respublikamızın iqtisadi inkişafı gücləndikcə yol infrastrukturu ilə yanaşı, yeni məktəblərin, xəstəxana və idman obyektlərinin tikintisi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminatla bağlı layihələr də uğurla icra olunur. Eyni zamanda, aqrar sektorun inkişafı ilə əlaqədar möhtərəm Prezidentin tapşırığına uyğun olaraq kənd təsərrüfatının Lənkəran rayonu üçün əlverişli olan sitrusçuluq, çayçılıq və çəltikçiliyin inkişafında da böyük irəliləyişlərin olduğunu vurğulayan T.Qaraşov gələcəkdə bu istiqamətdə fəaliyyətin genişləndiriləcəyini, ölkədə ərzaq bolluğunun yaradılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə, sosial rifahının yaxşılaşdırılmasına hər cür köməklik olunacağını bildirib.

Şağlaserlilərin dövlətə və dövlətçiliyə həmişə sədaqətli insanlar olduğunu xüsusi qeyd edən İcra başçısı sakinləri ərazidəki boş torpaqlardan səmərəli istifadə etməyə çağırıb: "Gərək bir qarış torpaq belə əkilməmiş qalmasın. Məhz bununla biz ölkədə ərzaq bolluğunu təmin etmiş olarıq".

İcra başçısı çıxışında həmçinin bir müddət öncə Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycanda çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair Dövlət proqramlarının qəbul edildiyini vurğulayaraq, hər üç sənədin Şağlaser ərazi vahidliyi sakinlərinin də sosial-iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edəcəyinə inamını ifadə edib.

Görüşün sonunda T.Qaraşov sakinlər tərəfindən qaldırılan məsələlərlə bağlı müvafiq qurumların rəhbərlərinə tapşırıqlarını verib.

***

## GƏRMƏTÜK QƏSƏBƏSİNDƏ

Martın 7-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov rayonun Gərmətük qəsəbəsində sakinlərlə səyyar qəbul-görüş keçirib.

Rayonun hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin, əlaqədar təşkilatların rəhbərlərinin, kütləvi informasiya vasitələri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi görüşdə İcra başçısı çıxış edərək əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf kursunun cənab Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsi sayəsində ölkədə iqtisadiyyatın ilbəil artdığını, sosial-iqtisadi inkişafın daha da sürətləndiyini, vətəndaşların həyat şəraitinin durmadan yaxşılaşdığını diqqətə çatdırıb. Natiq cənab Prezidentin müdrik düşüncəsi ilə həyata keçirilən islahatlar kursunun bütün sahələrdə dinamik inkişafı təmin etdiyini, hər yerdə genişmiqyaslı tikinti-abadlıq, mədəni quruculuq işlərinin görüldüyünü söyləyib. Ölkə başçısının ardıcıl sərəncamları hesabına Lənkəran şəhərinin, bütövlükdə rayonun sosial-iqtisadi inkişafının daha da sürətləndiyini və bu davamlı inkişafın hər yer kimi Gərmətük qəsəbəsində də göz önündə olduğunu vurğulayan natiq qəsəbə sakinlərinin bundan sonra da ictimai-



siyasi həyatda fəal olacaqlarına, cənab Prezidentin bu misilsiz qayğısına əməli fəaliyyətləri ilə və Heydər Əliyev siyasi kursuna sadiqlik hissi ilə cavab verəcəklərinə, Azərbaycanın tərəqqisi naminə səylə çalışacaqlarına əmin olduğunu bildirib.

Qəbul zamanı çıxış edən qəsəbə sakinləri göstərilən əvəzsiz qayğı və diqqətə görə ölkə başçısına minnətdarlıqlarını bildirməklə yanaşı, bəzi yerli əhəmiyyətli məsələlərlə bağlı fikir və mülahizələrini də diqqətə çatdırıblar.

Görüşü yekunlaşdıran İcra başçısı çıxışlarda qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti məsul şəxslərə müvafiq tapşırıqlar verib.

***

## ŞIXƏKƏRAN KƏNDİNDƏ

Martın 9-da Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov rayonun Şıxəkəran kənd inzibati ərazi dairəsində səyyar qəbul-görüş keçirib. Görüşdə rayonun kənd təsərrüfatı ilə bağlı təşkilatlarının, xidmət sahələrinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və kənd ictimaiyyəti nümayəndələri iştirak ediblər.

İcra başçısı çıxış edərək Lənkəran şəhərinin və rayonun inzibati ərazi dairələrinə daxil olan yaşayış məntəqələrinin, habelə Şıxəkəran kəndinin sosial-iqtisadi inkişafı sahəsində dövlət səviyyəsində görülən işlər barədə ətraflı məlumat verərək əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su ilə təchizatı vəziyyətinin, xüsusilə yol infrastrukturunun yaxşılaşdırılması və digər mədəni-quruculuq məsələləri ilə əlaqədar həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb.

Natiq son illərdə rayonda sahibkarlığın inkişafına



verilən dövlət dəstəyi hesabına Şıxəkəran kənd inzibati ərazi dairəsində də müəyyən işlərin görüldüyünü, xüsusilə kənd təsərrüfatı sahəsində bu işlərin daha da intensivləşdiyini və cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan güzəştlərdən, ayrılan subsidiyalardan səmərəli istifadə olunmasına diqqətin artmasının yaxşı hal olduğunu, bunun hesabına əkin sahələrinin genişləndiyini, daha çox kənd sakininin işə cəlb olunmasına yeni imkanların yarandığını diqqətə çatdırıb. İcra başçısı sadaladığı işlərin daha da sürətlənəcəyinə əminliyini ifadə edərək kənd sakinlərini bu sahədə fəal olmağa səsləyib.

Görüşdə çıxış edən kənd sakinləri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək cənab Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

İcra başçısı görüşdə səsləndirilmiş kənddaxili yollar, kənd təsərrüfatı işləri, suvarma və bir sıra digər məsələlərə aid təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə konkret tapşırıqlar verib.

***

## HİRKAN QƏSƏBƏSİNDƏ

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov vətəndaşlarla növbəti səyyar qəbul-görüşünü martın 10-da rayonun Hirkan qəsəbəsində keçirib.

Rayonun hüquq-mühafizə orqanlarının, müvafiq idarə və təşkilatların, xidmət sahələrinin rəhbərlərinin və yerli əhalinin iştirak etdiyi tədbirdə T.Qaraşov sakinləri salamlayaraq əvvəlki görüşlərdə qaldırılan problemlərin artıq olmadığını, bunun ürəkaçan fakt olduğunu bildirib. Problemlərin həllində yerli sakinlərin də əməyi olduğunu qeyd edən İcra başçısı onlara təşəkkür edərək bildirib ki, son dövrlərdə respublikanın hər yerində olduğu kimi, Lənkəranda da quruculuq-abadlıq işləri geniş vüsət alıb. Təkcə son beş ildə rayonda onlarla yeni məktəb binaları inşa edilib, ucqar ərazilərə gedən avtomobil yolları təmir olunub, yeni körpülər salınıb, əksər yaşayış məntəqələri qazlaşdırılıb, əhalinin dayanıqlı elektrik enerjisi təchizatı yaxşılaşdırılıb.

T.Qaraşov bu il Hirkan qəsəbəsi ərazisində də elektrik xətt təsərrüfatının tamamilə yeniləşdiriləcəyini, rayonda qazlaşdırma işlərinin davam etdiriləcəyini bildirib.

Qazanılan bütün uğurların, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin gərgin və səmərəli fəaliyyətinin bəhrələri olduğunu qeyd edən İcra başçısı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlətimizin həyata keçirdiyi böyük layihələrdən söz açıb.



İcra başçısı, eyni zamanda, kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə diqqətin artırılması məsələsinə toxunaraq istifadəsiz qalan torpaq sahələrinin əkin dövriyyəsinə qaytarılmasının vacibliyini xüsusi qeyd edib. Natiq vaxtilə Hirkanda ixtisaslaşdırılmış çayçılıq təsərrüfatının olduğunu və çay emalı fabrikinin fəaliyyət göstərdiyini xatırladaraq bu sahənin dirçəldilməsi üçün yeni imkanların yarandığını, ölkə başçısının sərəncamları ilə çayçılıq, çəltikçilik və sitrusçuluğun inkişaf etdirilməsi məqsədilə Dövlət proqramlarının qəbul edildiyini bildirib. Natiq ölkə başçısının kənd təsərrüfatının inkişafı üçün yaratdığı imkanlardan maksimum istifadə etməklə yerli sakinləri ölkədə ərzaq bolluğuna sanballı töhfələrini verməyə çağırıb.

Görüşdə yerli sakinlər çıxış edərək son vaxtlar Hirkan qəsəbəsi ərazisində görülmüş abadlıq-quruculuq işlərini təqdir edərək, bunun üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını çatdırmaqla, eyni zamanda, təklif və mülahizələrini söyləyiblər.

Görüşü yekunlaşdıran T.Qaraşov əhali tərəfindən qaldırılan məsələlərin araşdırılaraq tədbir görülməsi üçün aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlarını verib.

**Səhifəni hazırladı:**
**Ağaddin BABAYEV**

# İCRA BAŞÇISI ZİYALILARLA GÖRÜŞÜB



Martın 5-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov rayon ziyalıları ilə görüşüb.

Görüşdə İcra başçısı dünyada baş verən qlobal hadisələr fonunda ölkədə sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş verən müsbət dəyişikliklərdən geniş söhbət açaraq əldə olunmuş uğurları təhlil edib.

Natiq vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ardıcıl səyləri ilə son illərdə əldə olunmuş iqtisadi imkanlar hesabına ölkənin hər yerində, o cümlədən Lənkəran rayonunda tikinti-abadlıq və mədəni quruculuq işləri geniş vüsət alıb.

T.Qaraşovun sözlərinə görə, cənab Prezidentin müvafiq sərəncamları ilə rayonda iri həcmli yol layihələri icra olunub, çoxmənzilli yaşayış binalarında əsaslı bərkitmə-gücləndirmə işləri görülüb, dam örtükləri əsaslı təmir olunub.

İcra başçısı rayonda təzə məktəblərin, səhiyyə müəssisələrinin, mədəniyyət və turizm obyektlərinin tikilib istifadəyə verilməsini cənab Prezidentin ölkə vətəndaşlarının təhsilinə, sağlamlığına, həyat şəraitinin yaxşılaşmasına göstərdiyi ardıcıl diqqətin bəhrəsi olduğunu bildirərək hər bir ziyalını ictimai-siyasi həyatda daha fəal olmağa, cəmiyyətin inkişafında bilik, bacarıq və səmərəli fəaliyyəti ilə yaxından iştirak etməyə dəvət edib.

Görüşdə çıxış edən ziyalılar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti tamamilə dəstəklədiklərini, sosial-iqtisadi inkişaf sahəsində qazanılan uğurlarla qürur duyduqlarını ifadə edərək ölkədə elmin, təhsilin, səhiyyə və mədəniyyətin inkişafı ilə bağlı həyata keçirilən işləri, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində həyata keçirilən siyasətin milli maraqlara xidmət etdiyini xüsusi vurğulayıblar.

Natiqlər Lənkəran şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinə və əhalini narahat edən çoxillik problemlərin həllinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını ifadə ediblər.

# LƏNKƏRANDA OD ÇƏRŞƏNBƏSİ TƏNTƏNƏ İLƏ QEYD OLUNDU



Martın 6-da Lənkəran şəhərinin Dəmiryol vağzalı qarşısında bayramsayağı bəzədilmiş meydanda Novruz bayramı atributlarından olan od çərşənbəsinin qarşılanması mərasimi keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə tonqal qalanıb, yerli incəsənət ustalarının ifasında maraqlı konsert proqramı səsləndirilib. Minlərlə lənkəranlının sevinc hissi ilə izlədiyi şənlikdə Novruz personajları – Bahar qızın könülləri oxşayan təbrik sözləri, Kosa və Keçəlin şirin, məzəli oyunları tamaşaçılara xoş ovqat bəxş edib.

# İCRA BAŞÇISININ SAHİBKARLARLA GÖRÜŞÜ OLUB

Martın 6-da Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Heydər Əliyev Mərkəzində rayon sahibkarları ilə görüşüb.

Görüşdə çıxış edən İcra başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin bəhrələrində sahibkarlıq subyektlərinin də sanballı payı olduğunu diqqətə çatdırıb. Natiq qeyd edib ki, məhz cənab Prezidentin təşəbbüsü ilə ölkədə uğurla həyata keçirilən iqtisadi islahatlar hesabına sahibkarlıq fəaliyyəti geniş vüsət alıb, saysız-hesabsız sahibkarlıq subyektləri yaradılıb, istehsal müəssisələri tikilərək istifadəyə verilib, yeni iş yerləri açılıb. Natiq qeyd edib ki, ölkə rəhbərliyi tərəfindən sahibkarlığın inkişafına verilən davamlı dəstək, yaradılan əlverişli şərait iş adamlarını ruhlandıraraq onları daha həvəslə işləməyə sövq edib, nəticədə ümumi məhsul buraxılışında özəl bölmənin payı son illərdə dəfələrlə artıb, sənaye ilə yanaşı, kənd təsərrüfatında da sahibkarlığın inkişafına geniş imkanlar yaranıb. Dövlət tərəfindən tətbiq olunan güzəştlərin, kənd əməkçilərinə verilən kredit və subsidiyaların torpağın becərilməsinə marağı artırdığını, bu sahəyə investisiya qoyuluşunun çoxaldığını bildirən İcra başçısı cənab Prezidentin kənd təsərrüfatının ayrı-ayrı sahələri, xüsusilə çayçılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafı ilə bağlı imzaladığı sərəncamların, təsdiq etdiyi Dövlət proqramlarının rayonda aqrar sahədə sahibkarlığın inkişafına güclü təkan olacağını, göstərilən sahələr üzrə



yeni layihələrin icrasına investisiya qoyuluşunun dəfələrlə artacağını, bunun sayəsində yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması hesabına yeni iş yerlərinin açılmasına və "Made in Azerbaijan" brendi ilə məhsul istehsalının artmasına, əldə olunan gəlirin çoxalmasına əlverişli imkanların yaranacağını diqqətə çatdırıb.

Görüşdə çıxış edən sahibkarlar onlara yaradılan əlverişli biznes mühitinə və işgüzar şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirməklə onun həyata keçirdiyi siyasi kursu daim dəstəkləyəcəklərini ifadə ediblər.

# LƏNKƏRANDA ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ SATIŞ-YARMARKASI KEÇİRİLİB



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq martın 10-da rayonun Velədi kəndi ərazisində Novruz bayramı münasibəti ilə kənd təsərrüfatı və ərzaq məhsullarının satış-yarmarkası keçirilib. Yarmarkaya Lənkəran və ətraf rayonlarda, həmçinin Bakı şəhərində fəaliyyət göstərən 30 firma və şirkət tərəfindən 40 tona yaxın müxtəlif növ yeyinti məhsulları, meyvə-tərəvəz və şirniyyat çıxarılıb.

Yarmarkanın keçirilməsi bazarda süni qiymət artımının qarşısını almaq məqsədi daşıyıb. Belə ki, satışa çıxarılan məhsullar alıcılara bazar qiymətindən 25-30 faiz aşağı qiymətə təklif olunub.

Gün ərzində davam edən yarmarkaya Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və icra aparatının məsul işçiləri də baş çəkərək burada yaradılmış şəraitlə, həmçinin məhsulların qiymətləri ilə maraqlanıblar. Yarmarkada şəhər və kənd ərazilərindən ümumilikdə 1500-2000 nəfər iştirak edib.

Qeyd edək ki, kənd təsərrüfatı və ərzaq məhsullarının satış-yarmarkası Novruz bayramına kimi hər həftənin şənbə günləri davam etdiriləcək.



**Ağaddin BABAYEV**

# LƏNKƏRANDA 8 MART - BEYNƏLXALQ QADINLAR BAYRAMI QEYD OLUNDU



Martın 7-də Lənkəran şəhərinin "Dörd fəsil" turizm və istirahət mərkəzində 8 Mart – Beynəlxalq Qadınlar bayramı münasibətilə şənlik keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçən şənlikdə İcra başçısı Taleh Qaraşov çıxış edərək qadınların ictimai-siyasi həyatda fəal mövqe tutduqlarını, cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə qadınların ölkənin inkişafında rolunun daha da artdığını, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ibrətamiz fəaliyyətinin buna ən gözəl nümunə olduğunu diqqətə çatdırmaqla rayon qadınlarını təbrik edib onlara ən xoş arzularını çatdırıb.

Sonra İcra başçısı rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup qadına Lənkəran Şəhər İcra Hakimiyyətinin fəxri fərmanlarını və qiymətli hədiyyələr təqdim edib.

Rayonun bədii özfəaliyyət kollektivlərinin və uşaq musiqi məktəbləri şagirdlərinin ifasında səslənən konsert proqramı şənlik iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

# PREZİDENTİN QAYĞISI - XALQIN SEVGİSİ

***Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da geniş hazırlıq işləri aparılır, müxtəlif tədbirlər yerinə yetirilir. Redaksiyamıza daxil olan oxucu məktublarında da bu siyasi kampaniyaya hazırlıqdan söhbət açılır, müxtəlif sahələrdə çalışan əmək adamları, təhsil, səhiyyə və mədəniyyət işçiləri arzu və təkliflərini bildirir, rəy və mülahizələrini bölüşürlər.***

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident! Bu gün Azərbaycanın teatr sənəti Sizin sayənizdə özünün yeni inkişaf dövrünü yaşayır. Sizin sərəncamlarınızla Azərbaycan teatrının maddi-texniki bazası gücləndirilmiş, bu sahədə çalışan sənət adamları hərtərəfli qayğı ilə əhatə olunmuşlar. Fevralın 22-də "Fəxri adlara görə aylıq təqaüdlərin artırılması haqqında" Sərəncamınızı da böyük rəğbət hissi ilə qarşıladıq. Bunun üçün Sizə dərin təşəkkürümüzü bildirir, saygı dolu minnətdarlığımızı çatdırırıq. Mədəniyyətimizə olan münasibətdə Ulu Öndər Heydər Əliyev ənənələrini yaşatmağınız hər birimizdə sağlam və işıqlı gələcəyə inamı daha da artırır. Biz hələ uzun illər Sizdən bu qayğını görəcəyimizə əminik.

Zati-aliləri, Sizə bir daha təşəkkür edir və Azərbaycanın rifahı naminə apardığınız ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq!

*Lənkəran Dövlət Dram Teatrının yaradıcı kollektivi adından:*

**Böyükxanım Əliyeva, Xalq artisti, Qabil Quliyev, Xalq artisti, Oruc Qurbanov, Əməkdar incəsənət xadimi, Adil Zeynalov, Əməkdar artist, Zemfira Nəcəfova, Əməkdar artist, Sucəddin Mirzəyev, Əməkdar artist**

***

### TƏHSİLƏ YÜKSƏK DÖVLƏT QAYĞISI HAMIMIZI SEVİNDİRİR

Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşayıblar. Ancaq bu arzulara çata bilməyiblər. Nə yaxşı ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşamaq xoşbəxtliyi bizə nəsib olub. Biz bunu yüksək qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq.

Biz inanırıq ki, Ümummilli Liderimizin gələcəyimizə hesablanmış, müdrik siyasətini uğurla həyata keçirən möhtərəm Prezidentimizin diqqət və qayğısı ilə Azərbaycan öz inkişafını uğurla davam etdirəcək.

İnkişaf edən Azərbaycanın qüdrəti təhsil sahəsinə göstərilən qayğının fonunda daha çox diqqətə layiqdir. Ölkəmizdə yeni tikilən, təmir edilən, maddi-texniki bazası möhkəmləndirilən məktəblərin sayı gündən-günə artır. Son illərdə təhsil sahəsində çalışanların əmək haqqı bir neçə dəfə artırılıb. Bütün bunlar Azərbaycanımızın işıqlı sabahının təminatıdır.

Biz çoxsaylı müəllim ordusunun adından möhtərəm Prezidentimizə təhsil işçilərinin əmək haqqının artırılması ilə bağlı imzaladığı Sərəncama görə dərin təşəkkürümüzü bildiririk.

Təbii ki, 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Lənkəran müəllimlərini təmsil edərək hər birimiz dövlət başçımıza sonsuz sevgi və məhəbbəti nümayiş etdirmək fürsətini layiqincə qiymətləndirəcəyik.




**Ülviyyə ƏLİYEVA,**
**Lənkəran şəhər 7 saylı tam orta məktəbin direktoru**

***

### KƏND ADAMLARI TORPAĞA ÜZ TUTUR

Həm sovetlər dönəmində, həm də müstəqillik illərində Ulu Öndər Heydər Əliyev zəhmət adamlarına həmişə dəyər verir, onları orden və medallarla təltif edir, mükafatlandırırdı. Hazırda bu siyasəti uğurla, dönmədən davam və inkişaf etdirən möhtərəm Prezidentimiz İlham Əliyev aqrar sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atır. Bu məqsədlə dövlət başçısının imzaladığı fərman və sərəncamlar, əmək adamlarına subsidiyaların verilməsi onları yenidən torpağa üz tutmağa sövq edir.

Lənkəranda çayçılıq, çəltikçilik, sitrusçuluq sahəsində inkişaf göz önündədir. Rayonumuz üçün ənənəvi olmayan baramaçılıq təsərrüfatının yaradılması da diqqət mərkəzindədir. Bütün bunlar kənd zəhmətkeşlərinin rifah halının yaxşılaşdırılmasına xidmət edir.

Azərbaycanda keçirilən prezident, parlament və bələdiyyə seçkiləri, referendumlar həmişə obyektiv, demokratik və şəffaf keçib. Aprelin 11-də keçiriləcək prezident seçkiləri də seçici fəallığı ilə fərqlənəcək, elektorat ən layiqli namizədə səs verəcək.

**Ramazan RƏHİMOV,**
**YAP Hirkan ərazi ilk təşkilatının sədri**

***

### PREZİDENT ƏMƏYİMİ YÜKSƏK QİYMƏTLƏNDİRDİ

Mən Girdəni kəndində yaşayıram. "Cənub-Aqro" MMC-nin çəltik zəmilərində işləyirəm. Bu yaxınlarda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı Sərəncamla "Əmək" ordeni ilə təltif olunmuşam. Hörmətli İcra başçısı Taleh Qaraşov fevralın 9-da keçirilən 2017-ci ilin yekunlarına həsr olunan geniş Şura iclasında ordeni mənə təqdim edəndə hədsiz qürur hissləri keçirdim. Bu, bir daha onu göstərir ki, dövlət başçımız hər sahədə olduğu kimi, biz zəhmətkeşlərə də diqqət və qayğısını əsirgəmir.

Bu yüksək qiymətə görə cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirir, ona möhkəm cansağlığı və doğma Vətənimizin daha da çiçəklənməsi naminə şərəfli fəaliyyətində yeni-yeni uğurlar arzulayıram. Aprelin 11-də keçiriləcək prezident seçkilərində mən ailə üzvlərimlə, yaxınlarımla, qohum-əqrabamla birlikdə Ulu Öndərimizin siyasi kursunun davamına səs verəcəyəm. Çünki bu kurs bizi daha xoşbəxt gələcəyə aparır.

**Dövlət QULİYEV,**
**Girdəni kənd sakini,**
**"Cənub-Aqro" MMC-nin işçisi**

***

### HAMIMIZ BİR NƏFƏR KİMİ...

Azərbaycanın səhiyyəsi ildən-ilə inkişaf edir. Son 14 ildə respublikamızda çoxsaylı tibb müəssisələri inşa edilib, səhiyyənin maddi-texniki bazası xeyli yaxşılaşdırılıb, regionlarda istifadəyə verilmiş müalicə-diaqnostika mərkəzlərində əhaliyə ən müasir xidmətlər göstərilir. Lənkəran Mərkəzi Rayon Xəstəxanası yenidənqurmadan sonra cənab Prezident İlham Əliyevin iştirakı ilə vətəndaşların istifadəsinə verilib, tibbi avadanlıqlar Avropa standartları səviyyəsindədir. Artıq bir neçə ildir ki, dövlət başçısının tapşırığı ilə respublika əhalisinin pulsuz dispanserizasiyası həyata keçirilir. Bu kampaniya Lənkəranda da həmişə mütəşəkkil şəkildə yerinə yetirilir.

Eyni zamanda, səhiyyə işçilərinin aylıq vəzifə maaşları mütəmadi olaraq artırılır. Dövlət başçısının növbəti Sərəncamı ilə əmək haqqımız martın 1-dən orta hesabla 10 faiz artırılıb. Bu qayğıya görə Lənkəranın çoxminli tibb işçiləri adından möhtərəm Prezidentimizə dərin minnətdarlığımızı bildiririk. Cənab İlham Əliyev bir daha sübut edir ki, o, həqiqətən hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Məhz buna görə də Lənkəranın səhiyyə işçiləri bir nəfər kimi aprelin 11-də seçki məntəqələrinə gedəcək, ən layiqli namizədə səs verəcəklər.

**Məmmədrahim FƏRZULLAYEV,**
**Lənkəran şəhər sakini,**
**"Tərəqqi" medallı tibbi işçisi**

***

### BU SİYASƏTİN DAVAMINA SƏS VERƏCƏYİK

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə doğma Vətənimiz gündən-günə çiçəklənir, böyüyür, inkişaf edir. Dövlət başçısının apardığı məqsədyönlü daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu getdikcə artır. Bunun nəticəsidir ki, respublikamız indi Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir.

Cənab İlham Əliyevin siyasətinin əsasını insan amili təşkil edir. Möhtərəm Prezidentin imzaladığı fərman və sərəncamların böyük əksəriyyətində əhalinin sosial rifah halının yaxşılaşdırılmasına üstünlük verilir. Buna görə də İqtidar-Xalq, Xalq-İqtidar birliyi getdikcə möhkəmlənir. Dövlət başçımızın son sərəncamları da bu baxımdan təqdirəlayiqdir. Bütün kateqoriyadan olan işçilərin əmək haqlarının, pensiyaların, müharibə veteranlarına, əlillərinə, şəhid ailələrinə verilən təqaüdlərin artırılması bunun əyani sübutudur.

Aprelin 11-də keçiriləcək prezident seçkilərinə hamılıqla mütəşəkkil surətdə hazırlaşırıq. Xalq ağı qaradan seçməyi yaxşı bilir. Əhalinin yekdil rəyi belədir: biz bu siyasətin davamına səs verəcəyik!

**Bülbül SADIQOV,**
**Zövlə kənd sakini, müəllim**

# BAHAR SEVGİSİ, NOVRUZ SEVİNCİ...

***(publisistik qeydlər)***

Yurdumuza bahar gəlir. Yazın gəlişini bu gözəl fəslin ilk müjdəçiləri olan qaranquşlar, məcrasına sığmayan çayların şaqraq nəğmələri, bulaqların zümzüməsi, dağlardan tökülən şəlalələrin hay-harayı, yaşıllığa bürünən ağacların həzin pıçıltıları xəbər verir. Budur, torpaq qış yuxusundan oyanır, təbiət al-əlvan rəngə boyanır. Xəfif bahar küləyi üzləri, gözləri oxşayır, saçlara daraq çəkir, ürəklərə xoş ovqat, ruh yüksəkliyi bəxş edir. Günəşin qızılı şüaları yeri qızdırır, torpaq cana gəlir. Bir sözlə, soyuq qışın ağrı-acıları arxada qalır. Hamı gül-çiçəkli baharı qarşılayır, onun gəlişinə sevinir. Çünki ruzi, bərəkət fəsli olan yazda ilin bol məhsulunun əsası qoyulur. Təsadüfi deyil ki, tarlalarda əmək bulaq kimi qaynayır.

Doğma Azərbaycanın dilbər guşəsi olan Lənkəran bu bahar günlərində daha gözəl, füsunkar görünür. Bir tərəfi dəniz, bir tərəfi dağ olan subtropiklər diyarının bənzərsiz təbiəti həmişə qonaqların diqqətini cəlb edib. Lənkəranlılar təkcə təbiətin bizə səxavətlə bəxş etdiyi gözəlliklərlə kifayətlənmir, qadir zəhməti və iməcilik yolu ilə yaşadıqları doğma kəndinin, qəsəbənin və şəhərin daha da abadlaşmasına, yenidən tikilməsinə və qurulmasına öz töhfələrini verirlər.

Milli kökləri və qaynaqları ilə çox-çox qədim dövrə gedib çıxan Novruzun milli bayram kimi baharda təntənə ilə qeyd olunması babalarımızın hər şeydən öncə fəsillərin gözəli olan yaza hədsiz sevgisindən, habelə qış üzərində qələbədən doğan sevincindən irəli gəlir. O vaxtdan xalqımız həmişə bu bayramı böyük təntənə, xoş əhval-ruhiyyə ilə qarşılayır. Lakin qeyd edək ki, ötən əsrin təxminən 60-cı illərində indi milli bayram kimi qeyd etdiyimiz Novruz müəyyən qadağalara da məruz qalıb. Bu bayramı uzun illər İslam dini ilə əlaqələndiriblər. Əslində bu İslama qarşı aqressiv münasibətdən irəli gəlib. Sonrakı araşdırmalar göstərdi ki, Novruz bayramı İslam dinindən çox-çox əvvəl qeyd olunub. Bu bayramın dini ayinlərlə heç bir əlaqəsi yoxdur. Sadəcə olaraq xalq təbiəti dəyişdirən, gözəlləşdirən baharın gəlişini bayram edir. Təsadüfi deyil ki, çox vaxt bu bayramı "Bahar bayramı" adlandırırlar. İnsanlara xoş əhval-ruhiyyə bəxş edən kosa-kosa oyunları, yumurta döyüşdürülməsi, küsülülərin barışdırılması, xəstələrə baş çəkilməsi və s. bu bayramın humanist mahiyyətini açıqlayır. Novruz bayramı ta qədimdən su, od, yel və torpaq çərşənbələri ilə müşaiyət olunur.

Novruz bayramına hazırlıq adətən fevralın axırlarından başlanır. Evlərdə tikinti-quruculuq, abadlıq, səliqə-sahman işləri aparılır. Martın 1-dən isə artıq bayram xonçaları bəzədilir. Xonçalarda başda səməni olmaqla evdə bişirilən hər cür şirniyyat, mer-meyvə olur. Bayram süfrələri, bir qayda olaraq, balıqsız olmur. Adətə görə bayram günü küsülülər barışmalı, bəy evindən nişanlı qızın evinə bayram xonçası aparılmalıdır. Eyni zamanda, bayram günü yaxın, uzaq qohumlar bir-birini arayıb axtarmalı, xüsusilə yataq xəstələrinə baş çəkməli, bayram sevinclərini bir-birilə bölüşməlidirlər. Bayram günlərində nişan aparmaq, toy etmək xoşbəxtlik rəmzi hesab olunur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərə dair sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının 4-cü ili artıq arxada qalır. Ötən illərdə Lənkəranda genişmiqyaslı tikinti-quruculuq işləri aparılıb. Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşovun rəhbərliyi ilə Lənkəranın sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə əlaqədar dövlət başçısının imzaladığı sərəncamlar uğurla həyata keçirilib. Hazırda bahar sevincləri, Novruz bayramı



əhval-ruhiyyəsi ilə yaşayan lənkəranlılar bu torpaqda yaşayıb işləməkdən qürur duyur, onun sosial-iqtisadi inkişafına öz töhfələrini verir, təbiətin əsrarəngiz gözəlliyinə zəhmətdən doğan yeni rənglər, çalarlar, naxışlar əlavə edirlər.

Builki Novruz bayramı çox əlamətdar bir vaxta təsadüf edir. Xalqımız qarşıdakı prezident seçkilərinə hazırlaşır. Artıq lənkəranlıların seçimi bəllidir. Seçkilərdən söhbət düşəndə hamı bu siyasi kampaniyada İlham Heydər oğlu Əliyevi dəstəkləyəcəyini bildirir.

Müsahibim uzun illər məsul vəzifələrdə çalışmış, yaşı səksəni ötmüş, Gərmətük qəsəbə sakini Əhəd Heydərovdur. O, fikirlərini bizimlə bölüşüb deyir:

– Ölkəmiz müstəqillik yollarında inamla irəliləyir. Onun beynəlxalq nüfuzu ildən-ilə artır. İndi hər kəs Azərbaycan vətəndaşı olması ilə qürur duyur. Çünki respublikamız coşqun tərəqqi, yüksəliş yolundadır. Azərbaycanın memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev bugünkü tərəqqi və yüksəliş üçün sarsılmaz təməl yaratdı. Qazanılan nailiyyətlər, uğurlar məhz bu təməldən irəli gəlir. Sevindiricidir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirir. İndi hamı yaxşı başa düşür ki, xalqımızın xoşbəxt gələcəyə gedən yolu məhz İlham Əliyevdən keçir. Onun müdrik daxili və xarici siyasəti ilə ölkəmizdə sabitlik, əminamanlıq hökm sürür. Xalqın maddi və mədəni həyat səviyyəsi durmadan yüksəlir. Təbii ki, bütün bunlar bizə haqq verir ki, cənab İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti postunda görək...

Müsahibimin sözlərindəki həqiqəti duymaq heç də çətin deyil. Lənkəranlılar keçən il sentyabrın 2-də cənab İlham Əliyevin rayona növbəti səfərini minnətdarlıqla xatırlayırlar. Dövlət başçısının iştirakı ilə Lənkəran şəhərində keçirilən respublika müşavirəsi kənd təsərrüfatının, o cümlədən sitrusçuluğun, çəltikçiliyin və çayçılığın inkişafına həsr olunmuşdu. Cənab Prezidentin ölkədə ərzaq bolluğu yaratmaq, qədim əkinçilik ənənələrini bərpa etməklə əlaqədar müdrik tövsiyələri Lənkəranda çayçılığı, sitrusçuluğu, çəltikçiliyi inkişaf etdirmək üçün mühüm əhəmiyyət kəsb edir. Çay, çəltik, sitrus sahələri genişləndirilir. Lənkəranda respublikada ilk dəfə keçirilən çay, çəltik və sitrus festivalı həmin sahələrdən əldə olunan məhsulların nümayişinə çevrildi.

Yuxarıda qeyd etdik ki, Lənkəran öz füsunkar təbiəti, coğrafi mövqeyi ilə həmişə xarici qonaqların, turistlərin diqqət mərkəzində olub. Elə buna görə də turizmin inkişafı ilə bağlı rayonda bir çox layihələrin icrasına başlanılıb. Təbii ki, hazırda tikintisi davam etdirilən Sütəmurdov kəndində Olimpiya İdman Kompleksi, Lənkəran şəhərində 11 mərtəbəli, 4 ulduzlu Qafqaz Otel Kompleksi və Haftoni qəsəbəsində "Lənkəran" İstisu Sağlamlıq Mərkəzi məhz bu məqsəd üçün nəzərdə tutulub.

Novruz ovqatı, sevinci ilə yaşasaq da, əzəli və əbədi torpağımız olan Dağlıq Qarabağla əlaqədar ağrıacıları unutmaq olmur. Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban gedən şəhidlərin xatirəsi həmişə hamımız üçün əzizdir. Onlar 2018-ci ilin baharını görməsələr də, bayram sevincini xalqımıza yaşadırlar. Əbədiyyətə qovuşan şəhidlərimizin builki Novruz bayramını Qarabağda keçirmək, Şuşada, Laçında, Kəlbəcərdə, Qubadlıda... bayram tonqalları qalamaq arzusu gerçəkləşməsə də, 2016-cı ilin aprel döyüşlərində onlar düşmənə sarsıdıcı zərbə endirərək Azərbaycanın hərb tarixinə qəhrəmanlıq səhifəsi yazdılar. Aprel döyüşləri bir daha göstərdi ki, Ali Baş Komandan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Silahlı Qüvvələri işğal altında olan torpaqları geri qaytarmaq qüdrətinə malikdir. Döyüşlər azğın düşmənə sübut etdi ki, ürəyi vətənpərvərlik hissi ilə döyünən, ölümün gözünə dik baxan qorxmaz, mərd Azərbaycan əsgəri canından keçər, ancaq doğulub boya-başa çatdığı doğma Vətənindən keçməz.

Elimizə, obamıza günəş hərarətli, gül-çiçək ətirli bahar gəlir. 2018-ci ilin baharı öz mübarək qədəmlərini torpağımıza qoyur. Öz gözəlliyi, füsunkarlığı, təmiz ab-havası ilə ürəkləri riqqətə gətirən bahar fəsillərin şahı kimi poeziyamızda, musiqimizdə, müdrik xalq deyimlərində, folklor nümunələrində həmişə ilhamla tərənnüm olunub.

Bəli, bu bahar günlərində hər kəs yaz sevgisi, Novruz sevinci ilə yaşayır. Məhz bu sevgi, bu sevinc ilə hamımız ölkəmizin siyasi həyatında mühüm rol oynayacaq prezident seçkilərinə gedirik.

**Xudaverdi CAVADOV**

# ƏN GÖZƏL QIZISAN SƏN TƏBİƏTİN

Xalqımızın ən qədim və ənənəvi bayramlarından biri də Novruz bayramıdır. Şərq xalqlarının yeni ilin gəlişi kimi dəyərləndirdiyi Novruz Zərdüştlüklə bağlansa da türk xalqları ona öz milli xüsusiyyətlərini vermişdir. Zaman keçsə də Novruz bayramı unudulmamış, yaddaşlarda yaşaya-yaşaya bu günümüzə qədər çatmış, cilalanmış, daha da gözəlləşmişdir. Novruz əcdadlarımızın qədim bayramlarından olmuş, insana həyat verən dörd ünsürün – suyun, odun, yelin, torpağın isinməsi, "dirilməsi" istəyi ilə bağlı yaranmışdır. Gecə ilə gündüzün bərabərləşdiyi gün baharın ilk günü sayılır.

Qədim zamanlardan bəri onu qeyd edən, ona çox dəyər verən xalq məhz Azərbaycan xalqı olmuşdur. Təsadüfi deyil ki, Novruz bayramının xalqımızın həyatındakı rolunu yüksək dəyərləndirən böyük dövlət xadimi, Ümummilli Liderimiz Heydər Əliyev demişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub. Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışını, varlığını, yenidən canlanması müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".

Möhtərəm Prezidentimiz İlham Əliyev də Novruz bayramının yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət yetirir. O bu barədə deyir: "Harada yaşamasından asılı olmayaraq, bu bahar bayramını bütün azərbaycanlılar dərin məhəbbət və ehtiramla qeyd etməlidirlər. Qoy, onların bu hissləri dünya azərbaycanlılarının doğma Vətənə, dövlətə, dövlətçiliyə, ana dilimizə və el-obalarına bağlılıqlarını daha da gücləndirsin".

Mart ayının 20-də yaz ətirli, yaz təravətli bahar gəlir. Təbiət qış yuxusundan oyanacaq. Günəşin parlaq və isti şüaları hər yeri qızdıracaq. Bahar fəsillərin ən gözəlidir. O, bizə başqa fəsillərdə yaşamadığımız gözəl duyğular yaşadır, bizi həyata qurub-yaratmağa həvəsləndirir.

Bahar fəslini tərif edərkən ölməz şairimiz S.Vurğunun "Bahar düşüncələri" şeirini xatırlayıram:

***Bahar, istəklimsən, başdan, binadan,***
***Ən gözəl qızısan sən təbiətin.***
***Xoşbəxt yaranmısan, xoşbəxt anadan,***
***Gözünün odusan şeirin, sənətin,***
***Ən gözəl qızısan sən təbiətin!***

Mən də xalqımızı min illərdən soraq verən əziz el bayramı – Novruzun gəlişi münasibəti ilə ürəkdən təbrik edirəm. Bu bahar bayramının xalqımıza səadət və firavanlıq, müstəqil dövlətimizə qələbə müjdəsi gətirməsini arzu edirəm. Qoy bu bayram həyatımıza sevinc və fərəh gətirsin.

**Südabə BABAYEVA,**
**Digah kənd tam orta məktəbinin direktoru**

# "MÜASİR AZƏRBAYCAN QADINI-3" LAYİHƏSİNİN İCRASININ BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR LƏNKƏRANDA TƏDBİR KEÇİRİLİB



Martın 3-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin və "Psixoloji Xidmət və Tədqiqatlar" İctimai Birliyinin təşəbbüsü ilə "Müasir Azərbaycan qadını–3" layihəsinin icrasının başa çatması ilə əlaqədar tədbir keçirilib. Respublikamızın tanınmış elm, mədəniyyət, ədəbiyyat və sənət adamlarının, cənub bölgəsinin fəal qadınlarının iştirak etdikləri tədbiri giriş sözü ilə açan "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin təsisçisi və rəhbəri Təranə Məmmədova qadınları qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək layihə iştirakçılarına minnətdarlığını çatdırıb.

Mərasimdə "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzi və "Müasir Azərbaycan qadını-3" layihəsi barədə ətraflı məlumat verilib.

Bildirilib ki, 2014-cü ildə fəaliyyətə başlayan "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin hazırda Bakı şəhərində 5, bölgələrdə isə 4 filialı əhaliyə üç istiqamətdə xidmət göstərir. Mərkəz yarandığı gündən əhaliyə psixoloji xidmət göstərməklə yanaşı, bölgələrdə maarifləndirmə layihələrini də uğurla davam etdirir.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Mərkəzin həyata keçirdiyi uğurlu layihələrdən biri də "Müasir Azərbaycan qadını" layihəsidir.

İcrasına 2016-cı ilin fevral ayında başlanılan layihə çərçivəsində keçirilən tədbirlərdə ölkəmizin tanınmış elm, mədəniyyət, ədəbiyyat və sənət xadimləri qadınlarla müxtəlif mövzularda görüşlər keçiriblər.

Tədbirdə çıxış edən Lənkəran ŞİH başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri, "Psixoloji Xidmət və Tədqiqatlar" İctimai Birliyinin sədri, psixologiya üzrə fəlsəfə doktoru Təranə Məmmədova, Milli Məclisin deputatı Qənirə Paşayeva, Dağıstan Qadınlar Birliyinin sədri İntizar Mamutayeva, Dərbənd Qadınlar Şurasının sədri Ayna Seyidova, Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıqova və digərləri layihənin əhəmiyyətindən danışıblar.

Lənkəranın "Nənələr" və "Nəvələr" folklor kollektivlərinin ifasında təqdim olunan qədim el nəğmələri tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**Natiqə AĞAYEVA**

*Miqrasiya xidməti*

# MAARİFLƏNDİRMƏ TƏDBİRİ



Lənkəran regional miqrasiya idarəsi Lənkəran Dövlət Universiteti və Astara Pedaqoji Kollecində "Dövlət Miqrasiya Xidməti: 11 il xidmətdə" mövzusunda maarifləndirmə tədbiri keçirib.

Görüşdə çıxış edən regional miqrasiya idarəsinin rəisi, miqrasiya xidməti müşaviri Səmədağa Abdullayev Dövlət Miqrasiya Xidməti tərəfindən göstərilən xidmətlər, eləcə də əldə edilən nailiyyətlər barədə, Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə bağlı göstərilən xidmətlər – olduğu yer üzrə qeydiyyat, müvəqqəti və daimi yaşamaq üçün icazənin və iş icazəsinin verilməsi qaydaları barədə məlumat verib. Qeyd olunub ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallardan biri şəxsin ölkənin ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumtəhsil müəssisələrində təhsil almasıdır. Diqqətə çatdırılıb ki, hər bir əcnəbi ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə uyğun olaraq qanunvericiliyin tələblərinə əməl etməli, ölkədə olma və yaşamalarını leqallaşdırmalıdır.

Lənkəran Dövlət Universitetinin professor-müəllim heyəti və Astara Pedaqoji Kollecinin tələbələri ilə görüşdə qanunsuz miqrasiyaya qarşı keçirilən tədbirlər və leqallaşma istiqamətində görülmüş işlər, həmçinin miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri barədə məlumatlandırmanın qanunsuz miqrasiyanın qarşısının alınmasında əhəmiyyətindən də danışılıb. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati məsuliyyətlər və miqrasiya qanunvericiliyində baş vermiş son dəyişikliklər izah olunub.

Xidmətin rəsmi internet səhifəsində "Elektron xidmət"lərin göstərilməsi üçün yaradılmış bölmənin imkanları haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, DMX-nin təqdim etdiyi 11 elektron xidmət "Elektron hökumət" portalına inteqrasiya olunub. Bu da öz növbəsində vətəndaşlara göstərilən xidmətlərin operativliyini, rahatlığını, habelə şəffaflığını təmin edir.

Ölkəmizdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün yaradılmış şərait, eləcə də Dövlət Miqrasiya Xidməti tərəfindən göstərilən xidmətlər barədə verilən məlumatlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Sonda suallar cavablandırılıb.

**İ.MƏHƏRRƏMOĞLU**

# LDU xəbərləri

## BİRGƏ ƏMƏKDAŞLIQ BARƏDƏ MÜQAVİLƏ İMZALANIB



Lənkəran Dövlət Universiteti (LDU) ölkənin ən nüfuzlu və reytinqli ali təhsil ocağı olan Bakı Dövlət Universiteti (BDU) ilə əməkdaşlıq imkanı əldə edib. Bu iki ali təhsil müəssisələri arasında elm və təhsil sahəsində əməkdaşlığa dair imzalanan müqavilə çərçivəsində mümkün olub. Bağlanmış müqavilə Lənkəran Dövlət Universitetinə mütəxəssis hazırlığı səviyyəsini yüksəltmək, elmi uğurlarını artırmaq, BDU-nun elmi-praktiki təcrübəsindən bəhrələnmək imkanı verir. Müqaviləni BDU-nun rektoru, akademik Abel Məhərrəmov və LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov imzalayıblar.

Ölkə təhsilində əsaslı keyfiyyət dəyişikliklərinə nail olmaq, elmin son uğurlarından birgə bəhrələnmək məqsədi daşıyan müqavilə çərçivəsində LDU-da bakalavriat səviyyəsində "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "Rus dili və ədəbiyyatı müəllimliyi" , "Tarix müəllimliyi" və "Ekologiya" ixtisasları üzrə kadr hazırlığı, magistrant və doktorant hazırlığı, ixtisasartırma (staj keçmə) təhsili, təcrübə mübadiləsinin yerinə yetirilməsi, eləcə də birgə elmi-tədqiqat işlərinin həyata keçirilməsi və konfransların təşkili sahəsində əməkdaşlıq nəzərdə tutulur.

Müqaviləyə əsasən BDU Lənkəran Dövlət Universitetində bakalavriat səviyyəsində yuxarıda adı çəkilən ixtisaslar üzrə kadr hazırlığında Bakı Dövlət Universitetində tərtib olunmuş tədris planlarının və müvafiq fənn proqramlarının istifadə edilməsinə, professor-müəllim heyətinin mühazirələr oxumasına icazə verir, tələbə və müəllim mübadiləsinə səy göstərir. Həmçinin, LDU-nun magistrant, doktorant və dissertantlarına elmi rəhbərlərin təyin olunmasına və onlara BDU-nun müvafiq laboratoriyalarında elmi-tədqiqat işlərinin aparılmasına icazə verilməsi də müqavilə şərtlərinə daxil edilib.

Müqaviləyə əsasən, BDU birgə konfrans, seminar və simpoziumların, elmi-tədqiqat işlərinin və qrant layihələrinin həyata keçirilməsini, LDU-nun müəllimlərinin BDU-da ixtisasartırma və təcrübə mübadiləsi keçməsinə köməklik göstərilməsini öhdəsinə götürür.

Bağlanmış ikitərəfli müqavilənin LDU-nun da üzərinə qoyduğu öhdəliklərə görə, Lənkəran Dövlət Universiteti tələbə və müəllim mübadiləsinə şərait yaradır, birgə elmi-tədqiqat işlərinin və qrant layihələrinin həyata keçirilməsinə, konfrans, seminar və simpoziumların təşkilinə dəstək verir.

Mübadilə proqramları hazırlıq, bakalavriat, magistratura, doktorantura proqramlarını və yay semestrini əhatə edir.

Qeyd edək ki, müqavilə 5 il müddətinə imzalanıb.

## REGİONAL OLİMPİADA KEÇİRİLİB



Lənkəran Dövlət Universitetində (LDU) fizika, riyaziyyat, kimya, biologiya fənləri üzrə regional olimpiada keçirilib. Olimpiadaya Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarından olan IX, X, XI sinif şagirdləri, Lənkəran Humanitar Kolleci, Astara Pedaqoji Kolleci, Masallı Dövlət Regional Kollecinin tələbələri qatılıb.

Lənkəran Dövlət Universitetinin tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor vəzifəsini icra edən dosent İdrak Əsgərov olimpiada iştirakçılarını, onların müəllimlərini, valideynləri universitet rəhbərliyi adından salamlayaraq keçirilən bilik yarışmasının əhəmiyyətindən danışıb, bu işin təşkilində yardımçı olan təhsil işçilərinə minnətdarlıq bildirib, şagird və tələbələri təlimatlandıraraq bilik yarışmasında uğurlar arzulayıb.

Tədqiqat işləri və innovasiyalar üzrə prorektor vəzifəsini icra edən professor Yədulla Ağazadə son illərdə ölkədə təhsilin inkişafı istiqamətində aparılan uğurlu fəaliyyətdən söz açıb, iştirakçılara LDU-da gedən təhsil islahatlarının səmərəli nəticələri ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, universitet bölgə iqtisadiyyatının, sosial-mədəni həyatının inkişafı üçün kadr hazırlığı bazası rolunu uğurla həyata keçirir, yeni ixtisaslar üzrə mütəxəssis hazırlığı istiqamətində fəaliyyətini genişləndirir.

Bilik yarışmasına qatılan 250-dən artıq iştirakçı seçdikləri fənn üzrə 30 sualı 2 saat ərzində yazılı cavablandırıb. Qeyd edək ki, obyektivliyi təmin etmək məqsədi ilə olimpiada üçün ayrılmış auditoriyalar vebkamera ilə təchiz olunub və nəzarətçi müəllimlər ayrılıb. Olimpiadanın gedişini Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov da izləyib.

Qaliblərə LDU-nun fəxri fərman, diplom və qiymətli hədiyyələri verilib.

Xatırladaq ki, Lənkəran Dövlət Universitetində regional olimpiadalar keçirmək artıq ənənə halını alıb. Ötən il də LDU-da fizika və riyaziyyat fənləri üzrə regional olimpiada keçirilmişdi.

**Ağaddin BABAYEV**

# "AQROLİZİNQ"Ə AQRAR SAHƏNİN TEXNİKİ TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİ MƏQSƏDİLƏ 160 MİLYON MANAT AYRILIB



Prezident İlham Əliyev fevralın 23-də "Aqrar sahənin texniki təminatının gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncamla taxılçılıq, pambıqçılıq, çəltikçilik, çayçılıq və bağçılıq kimi ənənəvi kənd təsərrüfatı sahələrinin davamlı inkişafı məqsədi ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının texnikaya, suvarma sistemləri dəstlərinə və avadanlığa ehtiyacını ödəmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.6.1-ci yarımbəndində göstərilmiş məbləğin 160 milyon manatı "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Sərəncamda bildirilir ki, son dövrlərdə ölkə iqtisadiyyatının əsas prioritet sahələrindən olan aqrar sektorda dövlət dəstəyinin gücləndirilməsi istiqamətində bir sıra mühüm işlər görülüb. Həyata keçirilən tədbirlər çərçivəsində "Aqrolizinq" ASC on mindən çox müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, o cümlədən müasir tipli pambıqyığan və taxılbiçən kombaynlar, traktorlar, yedəklər və digər kənd təsərrüfatı texnikası alaraq respublikaya gətirib. Ölkənin kənd təsərrüfatı texnikası parkı müasirləşdirilmiş, dövlət büdcəsinin vəsaiti hesabına ilkin dəyərinə 40 faiz güzəşt tətbiq edilməklə həmin maşın və mexanizmlər fermerlərə satılıb. Görülən məqsədyönlü tədbirlər nəticəsində kənd təsərrüfatının ənənəvi sahələri sayılan pambıqçılığın, taxılçılığın, çəltikçiliyin, çayçılığın, bağçılığın və digər sahələrin dayanıqlı inkişafı təmin olunmuşdur, yeni yaradılan pambıq qəbulu məntəqələri və pambıq emalı zavodları isə hazırda avadanlıqla təchiz edilir.

Bununla belə, uzun müddət istismarda olmuş kənd təsərrüfatı texnikasının bir hissəsinin texniki parametrlərinin və keyfiyyət göstəricilərinin müasir standartlara uyğun gəlməməsi səbəbindən, innovativ və yeni mütərəqqi becərmə texnologiyalarının tətbiqi ilə əlaqədar texnika parkının yenilənməsi, məhsul istehsalçılarının müasir kənd təsərrüfatı texnikasına tələbatının fasiləsiz və davamlı ödənilməsi sahəsində əlavə tədbirlər görülməsi zəruridir.

**Barat KƏRİMOV**

# HİNDİSTANDA "AZƏRBAYCAN MULTİKULTURALİZMİ" FƏNNİNİN TƏDRİSİNƏ BAŞLANILIB




Hindistanın Sri Sri Universitetində Azərbaycanın multikulturalizm modeli ilə bağlı müntəzəm dərslərə start verilib.

Dərslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Sri Sri Universiteti arasında 2017-ci ilin dekabrında əldə edilən razılaşma əsasında keçirilir. Fənni Sri Sri Universitetində Kənan Məmmədov tədris edir. Tədrisə hazırlıqlara 2017-ci ilin noyabrından start verilib və universitetin düşərgəsində, eyni zamanda, elektron ünvanda dərslərlə bağlı elanlar paylanılıb.

Açılış dərsində universitetin prezidenti Rajit Kulkarni, universitetin rektoru Nanda Lal, fənnin tədris olunduğu kafedranın müdiri Pratima Sarangi və tələbələr çıxış ediblər. Dərslər üçün qeydiyyatdan keçən hindistanlı tələbələr arasında gələcəkdə ölkəmizdə təhsil almaq, iş qurmaq, həmçinin Hindistan universitetlərində Azərbaycanla bağlı dərs demək istəyən və bu məqsədlə mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız və multikultural vəziyyət ilə bağlı biliklərə yiyələnmək istəyənlər çoxluq təşkil edir. Seçilən tələbələr Azərbaycanda qış və yay məktəblərində iştirak etmək üçün şans qazanacaqlar. Bu da öz növbəsində tələbələrə stimul verən amillərdən biridir.

Qeyd edək ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Hazırda sözügedən layihə çərçivəsində respublikamızın 40, dünyanın 18 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni uğurla tədris olunur.

Xatırladaq ki, BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin ideya və təşəbbüsü ilə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri üzrə tədris proqramları Təhsil Nazirliyində təsdiq olunduqdan sonra sözügedən layihəyə start verilib. Sevindirici məqam ondan ibarətdir ki, artıq fənnin tədrisində müəyyən müsbət təcrübə əldə olunub, bu yaxınlarda işıq üzü görən "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi də tədrisin keyfiyyətinin daha da yüksəlməsinə imkan yaradır. Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün real həllini tapması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində xaricdə "Azərbaycan multikulturalizmi" fənlərinin tədrisi daha geniş coğrafiyanı əhatə etməkdədir.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidməti**

# SİYAVARDA YENİ MƏKTƏB BİNASI İSTİFADƏYƏ VERİLİB




Lənkəran rayonunda təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı dövlət səviyyəsində tədbirlər davam etdirilir. Rayonun ucqar kəndlərində köhnə, yöndəmsiz binalarda yerləşən məktəblər üçün təzə binalar tikilir. Rayonun Siyavar kəndində də uyğunlaşdırılmış köhnə binada yerləşən məktəbin yerində yeni modul tipli məktəb binası tikilib istifadəyə verilib.

Martın 2-də təzə məktəbin açılış mərasimi keçirilib. Müəllim və şagird kollektivi ilə yanaşı, valideynlərin də böyük sevincinə səbəb olmuş təzə məktəbin açılışında Lənkəran ŞTŞ-nin müdiri Aslan İbrahimov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edən müəllim və valideynlər gənc nəslin təlim-tərbiyəsinə və sağlam böyüməsinə göstərilən davamlı diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

# NOVRUZ BAYRAMI ŞƏNLİKLƏRİNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ



***Yurdumuza bahar gəlir – həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət-ənənələrimizə uyğun olaraq baharın gəlişini – Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. İqtisadiyyatının gündən-günə inkişaf etdiyi müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndləri bu gün bir-birindən rəngarəng bayram tədbirləri ilə Novruzu qeyd etməyə hazırlaşır.***

***Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yangın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.***

**NOVRUZ BAYRAMI İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN ŞƏNLİKLƏRDƏ**

– Əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır.

– Tonqallar ətrafında olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, ot tayalarından, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

– Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

– Şənliklərdə atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi qadağandır!

**UNUTMAYIN Kİ…**

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

**NOVRUZ BAYRAMI ŞƏNLİKLƏRİNDƏ UŞAQLARI NƏZARƏTSİZ QOYMAYIN!**

– Bahar bayramı şənliklərində azyaşlıların, uşaqların odla dəcəllik etməsinə yol verilməməlidir.

– Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

**ŞAM YANDIRARKƏN**

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatların, təhsil ocaqlarının, xüsusən də internat tipli və s. məktəblərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

**Milli bayramımızı – novruzu xoş duyğularla başa vurmaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.**

**FHN DYNX-nin Yanğına qarşı təbliğat şöbəsi**

## Teatr xəbərləri



# MİLLİ TEATR GÜNÜ QEYD OLUNUB

Lənkəranda 10 mart – Milli Teatr Günü qeyd olunub. Bu münasibətlə Lənkəran Dövlət Dram Teatrında tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan teatrın direktoru Tofiq Heydərov Azərbaycanda milli teatrın yaranma tarixindən, rəhbərlik etdiyi kollektivin inkişaf yolundan, yaradıcılıq planlarından ətraflı məlumat verib.

Bildirilib ki, bu gün ölkəmizdə teatrlara və sənət adamlarına böyük diqqət və qayğı göstərilir. Paytaxtda və bölgələrdə yeni teatr binaları tikilir, əsaslı təmir edilir və ya yenidən qurulur. Ölkə başçısının "Azərbaycan Respublikasında Milli Teatr Gününün təsis edilməsi haqqında" 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. 127 yaşını qeyd edən Lənkəran teatrı dərin məzmunlu əsərləri tamaşaya qoymaqla teatr tariximizdə özünəməxsus ənənə formalaşdırıb. Həmin əsərlər bu sənət ocağında istedadlı aktyor və rejissor nəslinin yetişməsinə səbəb olub, bütöv bir tamaşaçı nəslinin estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynayıb.

Ötən illər ərzində Lənkəran teatrı dəfələrlə respublikamızda, eləcə də xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda nailiyyətlər qazanıb.

O da diqqətə çatdırılıb ki, hazırda kollektiv yüksək yaradıcılıq əzmkarlığı ilə yeni tamaşalar üzərində işləyir. Gənc rejissor Emil Əsgərov Belçika dramaturqu Moris Meterlinkin "Korlar" pyesinin məşqlərini aparır. Bundan əlavə, cari mövsümdə Sofokolun "Antiqona", N.B.Vəzirovun "Pəhləvanizəmanə", başqırd dramaturqu Süleyman Lətipovun "Evlən, oğul, evlən!" və daha bir neçə uşaq əsərinin də tamaşaya qoyulması nəzərdə tutulub.

Tədbirdə teatrın aktrisaları Şahrud Mehdiyevaya, Qızılgül Quliyevaya, Şəbnəm Hüseynovaya, Günel Abbaszadəyə və rejissor assistenti Ziba Bədəlovaya teatr sənəti sahəsində səmərəli fəaliyyətlərinə görə Fəxri fərmanlar və pul mükafatı, həmçinin "ARB CƏNUB" TV-nin yaradıcı kollektivi Lənkəran Dövlət Dram Teatrının fəaliyyətini mütəmadi işıqlandırdığına görə təşəkkürnamə ilə təltif olunublar.

Daha sonra teatrın truppasının ifasında görkəmli Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" tamaşası nümayiş etdirilib. Əməkdar incəsənət xadimi Oruc Qurbanovun quruluş verdiyi səhnə əsərində əsas rolları respublikanın Xalq artisti Qabil Quliyev, Əməkdar artist Sücəddin Mirzəyev, aktyorlardan Şahrud Mehdiyeva, Allahverən Babayev, Miraslan Ağayev, Əlibala Əsgərov, Səyad Əliyev, Hikmət Cəfərov, Nizami Qurbanov və digərləri ifa ediblər.

Anşlaqla keçən tamaşanı Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov başda olmaqla bu ali təhsil ocağının professor-müəllim heyəti və tələbələri izləyiblər.

***

## UŞAQLAR ÜÇÜN NOVRUZ TAMAŞASI

Martın 11-də Lənkəran Dövlət Dram Teatrında Tərlan Abdullayevin müəllifi və quruluşçu rejissoru olduğu "Qaraca qız və Xallı ifritə" adlı nağıl-tamaşanın premyerası olub. Xeyirlə şərin mübarizəsindən bəhs edən səhnə əsərinin quruluşçu rəssamı Tərlan Sadıqov, rəqslərin quruluşçusu Günel Abbaszadə, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Məktəblilər tərəfindən maraqla qarşılanan tamaşada əsas rolları Əməkdar artist Sucəddin Mirzəyev, artistlərdən Qızılgül Quliyeva, Emin Fərzullayev, Aysel Cahangirova, Şəbnəm Hüseynova, Ülkər Quliyeva, Nizami Qurbanov və digərləri ifa ediblər.

Qeyd edək ki, Novruz bayramı günlərində oynanılacaq bu tamaşa məktəb yaşlı uşaqlara xoş anlar yaşadacaq.

**Ağaddin BABAYEV**

# PİYADALARIN İŞTİRAKI İLƏ BAŞ VERMİŞ YOL-NƏQLİYYAT HADİSƏLƏRİNİN PROFİLAKTİKASI GÜCLƏNDİRİLMƏLİDİR

Son illər respublika ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, o cümlədən hadisələrin baş verməsinə bilavasitə təsir göstərən inzibati xətaların qarşısının alınması məqsədilə həyata keçirilmiş profilaktik tədbirlərlə yol-nəqliyyat hadisələrinin sayında və ağırlıq dərəcəsinin aşağı salınmasında müsbət nəticələr əldə olunmuşdur.

Yollarda piyadaların təhlükəsizliyinin təmin edilməsi işinin təşkili diqqət mərkəzində saxlanılmaqla ölkə ərazisində təkcə 2017-ci ildə piayadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasına, o cümlədən yolun hərəkət hissəsinin müəyyən olunmayan yerdən keçilməsinə və piyada işıqforunun işarələrinə riayət edilməməsinə görə respublika üzrə 86.218 inzibati protokol yazılmışdır.

Təhlil göstərir ki, ötən il qeydə alınmış 1833 yol-nəqliyyat hadisələrinin 51,2 faizi və ya 938-i piyadaların vurulması faktları təşkil etmişdir. Baş vermiş qəzalarda ölənlərin 48 faizi və ya 359 nəfəri, xəsarət alanların 37 faizi və ya 643-ü məhz piyadalar olmuşdur. Qəzaların sayının, eləcə də bu qəzalarda ölən və yaralananların sayının əvvəlki illərlə müqayisədə azalmasına baxmayaraq, araşdırmalar göstərir ki, əksər hallarda belə hadisələrin baş verməsində sürücülərlə yanaşı, piyadalar da təqsirli olduqları halda onların yol hərəkəti qaydalarını pozmalarına qarşı görülən inzibati tənbeh və təbliğat tədbirləri, xüsusilə də azyaşlılar və gənclərlə aparılan iş hələ də lazımi səviyyədə təşkil edilməmişdir.

Piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulması hallarının və onların iştirakı ilə baş vermiş yol qəzalarının qarşısının alınması işinin daha məqsədyönlü təşkil edilməsinin vacibliyi baxımından yollarda piyada səki ilə, piyada zolağı ilə, yol çiyinləri ilə, bunlar olmadıqda isə velosipedçilərin hərəkətini çətinləşdirməmək şərti ilə velosiped yolu ilə hərəkət etməli, ayrıca zolağı olan yollarda hərəkət hissəsinin xarici kənarı ilə getməlidir. Piyadalar yol ayrıclarında olan yeraltı və yerüstü keçidlərdən istifadə etməlidirlər. Bütün bu piyadalar üçün ayrılmış hərəkət zolaqları olmadıqda piyadalar yolun hərəkət hissəsi ilə nəqliyyat vasitələrinin hərəkət istiqamətinə qarşı getməlidirlər. Əlil arabası, velosiped və digər mühərriksiz nəqliyyat vasitələri ilə hərəkət edən piyadalar isə nəqliyyat vasitələrinin hərəkət istiqamətində getməlidirlər. Nəqliyyat vasitələrini gözlədikdə bunun üçün xüsusi ayrılmış dayanacaqlarda, dayanacaqlar olmadıqda yol çiyinlərində, hərəkət hissəsindən nisbətən hündür yerlərdə gözləmək lazımdır. Nəqliyyat vasitələrindən düşdükdən sonra ləngimədən yolun hərəkət hissəsini tərk etmək lazımdır. Yolu keçərkən hərəkətin nizamlandığı yerlərdə nizamlayıcının və piyada işıqforunun, o olmadıqda isə nəqliyyat işıqforunun işarəsi əsas tutulmalıdır. Yolu keçərkən yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalı, nəqliyyat vasitəsinin olmadığını yəqin etməli, görünmə zolağı, keçid və yolayrıcı olmadıqda, ayrıca zolaq olmayan və sədd çəkilməyən, hər iki tərəfdən yaxşı görünən sahələrdə hərəkət hissəsinin kənarına nisbətən yolu düzbucaq altında keçməli, sutkanın qaranlıq vaxtı yolun işıqlanmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda keçməli, keçidlər zamanı yolun hərəkət hissəsində nisbətən uzaqda olan və yaxınlaşan nəqliyyat vasitələrinədək məsafəni, onların sürətini qiymətləndirdikdən və yolu keçənədək həmin nəqliyyat vasitələrinin sizin üçün heç bir təhlükə yaratmayacaqlarını yəqin etdikdən sonra yolu keçmək lazımdır. Yolu tamam keçə bilmədikdə yolun mərkəzində hərəkət istiqamətlərini ayıran xəttin üstündə dayanıb gözləməli və bundan sonra hərəkətin təhlükəsizliyinə tam əmin olduqdan, yəni yolun hərəkət hissəsində hərəkətdə olan nəqliyyat vasitəsinin olmadığına tam əmin olduqdan sonra yolu keçməlisiniz. Yol keçidi zamanı üzərində göy-qırmızı sayrışan işıqları və xüsusi səs siqnalları olan (təcili yardım, yanğınsöndürən, polis və sair) nəqliyyat vasitələri yaxınlaşdıqda yolun hərəkət hissəsinə çıxmamalı, yolun hərəkət hissəsində olarkən isə bu nəqliyyat vasitələrinə yol verməli və hərəkət hissəsini dərhal boşaltmalısınız.

Bu qaydalara ciddi əməl etməklə hər birimiz yollarda hərəkət zamanı təhlükəsizliyimizi təmin edərək öz həyatımızı qorumaqla yanaşı, həm də başqalarının həyatı üçün təhlükə yaratmamış oluruq. Hər birimizin təhlükəsiz hərəkətimiz özümüzdən asılıdır. Odur ki, yol hərəkəti qaydalarına riayət edərək, yollarda diqqətli olaraq, təhlükələrdən uzaq olaq!

**Emil VƏLİYEV,**
**Lənkəran ŞRPŞ DYPB-nin təbliğat və təşviqat üzrə inspektoru, polis kapitanı.**

# TƏBRİK EDİRİK!



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 1 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilib.

"Tərəqqi" medalı ilə təltif olunanlar arasında Lənkəran Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru **Nuranə Tofiq qızı Nəsirova** da var. Yüksək dövlət mükafatı münasibətilə Nuranə xanımı oxucularımız adından təbrik edir, ona yeni-yeni uğurlar diləyirik.

**"Lənkəran"**

# İTMİŞDİR

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 16 may tarixli 09 saylı qərarı ilə Siyabli kənd sakini **Mirzəyev Xeyrulla Mənsim oğlunun** adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-0017, kod: 80217078) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 30 may tarixli 10 nömrəli qərarı ilə Moğonojoba kənd sakini **Şabanov Əli Xudaverdi oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-189, kod: 80219028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 03 mart tarixli 04 saylı qərarı ilə Səpnəkəran kənd sakini **Şabanov Ağamirzə Şamirzə oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-218, kod:80218018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 20 dekabr tarixli 12 saylı qərarı ilə Kərgəlan kənd sakini **Hacıyeva Qəmər Əyyub qızının** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-471, kod: 80212018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 20 dekabr tarixli 12 saylı qərarı ilə Şağlakücə kənd sakini **Əhmədov Aydın Həsənəli oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-423, kod: 80223018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 03 mart tarixli 04 saylı qərarı ilə Səpnəkəran kənd sakini **Əkbərov Şərif Bəxtiyar oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-159, kod:80218018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 27 mart tarixli 05 saylı qərarı ilə Kənarmeşə kənd sakini **Qurbanov Xeyrulla İbadulla oğlunun** adına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-160, kod:80204038) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

İqtisadiyyat Nazirliyinin Lənkəran Regional Bölməsinin kollektivi Regional Bölmənin baş məsləhətçisi **Nənəbacı Muradovaya** atası
**Faiqin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran şöbəsi
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Buraxılışa məsul
Natiqə Ağayeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 2200